**Rusiya Milli Kitabxanası və**
**Azərbaycan Milli Kitabxanası arasında**
**əməkdaşlıq haqqında**

# Müqavilə

Bakı şəhəri 29 sentyabr 2017-ci il

Rusiya Milli Kitabxanasının (RMK), (Sankt-Peterburq şəhəri, Rusiya Federasiyası) direktoru Aleksandr İvanoviç Vislıy və Azərbaycan Milli Kitabxanasının (AMK), (Bakı şəhəri, Azərbaycan Respublikası) direktoru Kərim Məhəmməd oğlu Tahirov mövcud olan Əsasnaməyə uyğun olaraq aşağıdakı müqaviləni (daha sonra Müqavilə adlandırılacaq) imzalayıblar:

## 1.Müqavilənin predmeti

**1.1.**Tərəflər RMK və AMK arasında peşəkar əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi üçün birgə fəaliyyət göstərmələrini öhdələrinə götürürlər.
**1.2.**Tərəflər kitabxana fondlarında boşluqları doldurmaq, elmi tədqiqatlara kömək məqsədilə materialların rəqəmsallaşdırılması üzrə layihələri dəstəkləyəcəklər.
**1.3.**Tərəflər arasında bağlanmış əlavə müqavilələrə və razılaşmalara uyğun olaraq tərəflərin qüvvədə olan qiymətlərinə əsasən aşağıdakı istiqamətlər üzrə əməkdaşlığı həyata keçirəcəklər: sərgilərin təşkili, nəşriyyat fəaliyyəti, seminarlar, sənədlərin bərpa edilməsi və qorunması, əlyazmaların rəqəmsallaşdırılması və s.
**1.4.**Tərəflər bir-birlərinin milli və mədəni irsi üçün mühüm əhəmiyyətə malik olan elmi, biblioqrafik və xüsusi nəşrlərin mübadiləsini həyata keçirməyə razıdırlar.
**1.5.**Tərəflər hər iki tərəfin peşəkar marağına uyğun mütəxəssislərin təcrübə keçməsinə razıdırlar.
**1.6.** Tərəflər birgə konfrans və seminarların (həmçinin təhsillə bağlı) keçirilməsi sahəsində əməkdaşlıq etməyə cəhd edəcəklər.
**1.7.** Tərəflər kitabxana obyektlərinin rəqəmsallaşdırılmasına çalışacaq, həmçinin Azərbaycan və Rusiya Federasiyasının birgə mədəni irsinə aid əsərlərin rəqəmsallaşdırılmasına dair layihələr həyata keçirəcəklər.
**1.8.**Tərəflər hər iki kitabxana fondlarının tədqiqi sahəsində birgə elmi layihələrin reallaşmasına çalışacaqlar.

## 2.Keçirilmə şərtləri

**2.1.**Müqavilənin 1.2, 1.3, 1.7-ci bəndlərində razılaşdırılmış layihələrin və birgə tədbirlərin keçirilmə şərtləri tərəflərin mövcud qiymətləri əsasında ayrı-ayrı saziş və müqavilələrlə bağlanır, əlavə olaraq tənzimlənir.
**2.2.**Mütəxəssislərin mübadiləsi müəyyən edilmiş illik kvota çərçivəsində aşağıdakı şərtlərlə həyata keçirilməlidir:
2.2.1. Tərəflər təcrübə keçmək üçün mütəxəssisləri müstəqil şəkildə müəyyənləşdirirlər.
2.2.2. Tərəflər təcrübənin keçmə şərtlərini, proqramını, vaxtını, təcrübəçilərin sayını, adını, soyadını əvvəlcədən razılaşdırmalıdırlar.
2.2.3. Tərəflər təqvim ilinin əvvəlində təcrübə mübadiləsi barədə direktorlar arasında yazışma vasitəsilə bir-birini məlumatlandıracaqlar.

## 3.Müqavilənin müddəti

**3.1.** Müqavilə imzalandığı gündən qüvvəyə minir.
**3.2.**Müqaviləyə istənilən dəyişikliklər və əlavələr səlahiyyətli şəxs tərəfindən imzalanmış yazılı formada müraciət əsasında edilə bilər.
**3.3.**Bu müqavilə müddətlə məhdudlaşdırılmamışdır və tərəflərdən biri onun pozmasını tələb etməyənədək qüvvədədir. Əgər bu müqavilənin etibarlılıq müddəti bitdikdən sonra layihələrinin başa çatdırılması istiqamətində tərəflər arasında digər razılaşma əldə olunmayıbsa, müqavilənin pozulması birgə layihələrin başa çatdırılması istiqamətində fəaliyyətin bərpası üçün maneə deyildir.

## 4.Yekun müddəalar

4.1. Müqaviləyə istənilən əlavə və dəyişikliklər hər iki tərəfin səlahiyyətli nümayəndələri tərəfindən imzalanma anından onun ayrılmaz hissəsi olur.
4.2. Adının, ünvanın dəyişdirilməsi, yaxud Tərəfin yenidən təşkili ilə bağlı yenilik olarsa, Tərəflər bu haqda bir-birlərini yeddi gün müddətindən gec olmayaraq yazılı şəkildə məlumatlandırmalıdırlar.
4.3. Müqavilə dörd nüsxədən ibarət tərtib olunub: iki nüsxə rus dilində və iki nüsxə Azərbaycan dilində, bütün mətnlər eynidir və eyni hüquqi qüvvəyə malikdir. Tərəflərin hər birində hər dildə bir nüsxə müqavilə qalır. Nüsxələr arasında hər hansı bir uyğunsuzluq olduqda, rus dilində olan varianta üstünlük veriləcəkdir.

## 5.Tərəflərin rekvizitləri və ünvanı

| | |
|---|---|
| Rusiya Milli Kitabxanası | Azərbaycan Milli Kitabxanası |
| 191069, Rusiya, Sankt-Peterburq | AZ 1000, Azərbaycan, Bakı |
| Ünvan: Sadovaya küç. B 18 | Ünvan: Xaqani küç. 29 |
| Tel.: (+812) 310-28-56 | Tel.: (+994 12) 493-40-03 |
| Faks: (+812) 310-61-48 | Faks: (+994 12) 498-08-22 |
| E-mail: office@nlr.ru | E-mail: contact@anl.az |
| Direktor | Direktor |
| ______________ A.İ.Vislıy | ______________ K.M.Tahirov |